UOT: 338.43; JEL: Q10; O13; J43; P48

Elnur Qara oğlu ALLAHVERDİYEV
Azərbaycan Kooperasiya Universitetinin dosenti,
iqtisad üzrə fəlsəfə doktoru
E-mail: allahverdiyev.elnur33@mail.ru
https://doi.org/10.30546/4.71.73001.2025.004.324

MÜASİR DÖVRDƏ ORQANİK KƏND TƏSƏRRÜFATININ İNKİŞAFININ TƏMİN OLUNMASI PROBLEMLƏRİNİN METODOLOJİ XÜSUSİYYƏTLƏRİ

Xülasə

Tədqiqatın məqsədi müasir dövrdə orqanik kənd təsərrüfatının inkişafının təmin olunması problemlərinin metodoloji xüsusiyyətlərinin müəyyənləşdirilməsi və ümumiləşdirilməsidir. Bunun üçün kənd təsərrüfatının inkişaf problemləri açıqlanmış və sistemləşdirilmişdir. Orqanik kənd təsərrüfatının formalaşdırılması və inkişaf etdirilməsinin konseptual yanaşmaları verilmişdir. Müasir şəraitdə orqanik kənd təsərrüfatının inkişaf etdirilməsinin metodoloji yanaşmaları üzrə ümumiləşdirmə aparılmış və təkliflər verilmişdir.

Tədqiqatın metodologiyası kimi elmi abstraksiya, analiz, sintez, müqayisə və ümumiləşdirmə metodları götürülmüşdür. Bunlarla bərabər, orqanik kənd təsərrüfatının inkişafının təmin olunması istiqamətində aparılan elmi-metodoloji tədqiqat əsərlərinə istinadlar olunmuşdur.

Tədqiqatın tətbiqi əhəmiyyəti baxımından qeyd edə bilərik ki, məqalədə verilmiş elmi-praktiki yeniliklərdən indiki şəraitdə kənd təsərrüfatının inkişaf xüsusiyyətlərindən səmərəli istifadə edilməsi mexanizmlərinin hazırlanmasında istifadə edilə bilər.

Tədqiqatın nəticələri baxımından qeyd edək ki, orqanik kənd təsərrüfatının inkişafının sürətləndirilməsi məqsədilə işdə verilən təkliflərdən müvafiq fəaliyyət mexanizmlərinin hazırlanmasında istifadə olunması mümkündür.

Tədqiqatın orijinallığı və elmi yeniliyi baxımından bunu qeyd edirik ki, yeni çağırışlar şəraitində orqanik kənd təsərrüfatının inkişaf etdirilməsinə metodoloji yanaşmalara yeni baxış və konseptual müddəalar formalaşdırılmış və əsaslandırılmışdır. Xüsusilə, qlobal transformasiyalar şəraitində orqanik kənd təsərrüfatının daha üstün metodoloji üslublarının müəyyənləşdirilməsi təmin olunmuşdur. Bunlarla bağlı tövsiyələr hazırlanmış və təkliflər verilmişdir.

Açar sözlər: kənd təsərrüfatı, orqanik kənd təsərrüfatı, orqanik kənd təsərrüfatının inkişaf problemləri, metodologiya, metodoloji yanaşmalar, metodoloji üslublar, metodoloji xüsusiyyətlər.

Giriş

Qeyd edək ki, ərzaq təhlükəsizliyi üzrə tədqiqatlar bütün dünyada prioritet məsələdir. Bu, intensiv kənd təsərrüfatı istehsalı üsullarının ətraf mühitə və insan sağlamlığına mənfi təsiri ilə bağlı xəstəliklərin sayının artması ilə izah olunur. Buna görə bir çox ölkələrdə orqanik kənd təsərrüfatı xüsusi aktuallıq qazanmışdır ki, bu da bir əsrə yaxın uzun yol keçmişdir - elmi təcrübələrdən tutmuş mühüm və sürətlə inkişaf edən sənayeyə qədər bu proses davam etmişdir. Digər tərəfdən, kənd təsərrüfatının müasir tələblərə uyğun inkişaf etdiirlməsi qlobal ərzaq təhlükəsizliyi baxımından müstəsna əhəmiyyət kəsb edir [5]. Bu baxımdan hər bir dövlətin siyasətində iqtisadiyyatın və iqtisadi təhlükəsizliyin gücləndirilməsində, xüsusilə ərzaq təhlükəsizliyinin mühüm indikatorlarının nəzərə alınmasında kənd təsərrüfatının və aqrar sənaye kompleksinin inkişaf etdirilməsinin stratji rolu nəzərə alınmalıdır [3, s. 27].

Müstəqil bir istiqamət kimi orqanik kənd təsərrüfatı ötən əsrin 40-cı illərində sənayenin kimyəvi gübrələrdən və insektisidlərdən asılılığına cavab olaraq Qərbi Avropa və Şimali Amerika ölkələrində fəal inkişaf etməyə başlamışdır. Bir çox ölkələrdə kənd təsərrüfatı istehsalçıları orqanik qida məhsullarının artan populyarlığına tez reaksiya verir, daxili bazarları doyurmaq və stimullaş-

dırmaq (bu tendensiya iqtisadi cəhətdən inkişaf etmiş ölkələr üçün xarakterikdir) və ya bərpa olunan mənbələrdən istifadə etməklə ixracı genişləndirmək üçün orqanik kənd təsərrüfatını inkişaf etdirir. Müvafiq ədəbiyyatlarda “orqanik kənd təsərrüfatı” termini tez-tez “ekoloji kənd təsərrüfatı”, “biodinamik kənd təsərrüfatı”, “orqanik əkinçilik”, “təbii kənd təsərrüfatı” terminləri ilə birlikdə istifadə olunur. Bu terminlərin mənasının mahiyyəti demək olar ki, eynidir: süni maddələrdən istifadədən imtina və kənd təsərrüfatı məhsullarının istehsalının bütün mərhələlərində təbii ehtiyatların qorunması və bərpası və s.

Müasir orqanik kənd təsərrüfatı qabaqcıl elmi nailiyyətlərə əsaslanan, aydın istehsal qaydaları, ciddi məhdudiyyətlər və sertifikatlaşdırma sistemi ilə əlaqəli bir sistemdir. Faydaları təmiz ətraf mühit, gələcək nəsillərin sağlamlığı və növlərin bioloji müxtəlifliyidir [11, s.189]. Demək olar ki, orqanik kənd təsərrüfatı hazırda müəyyən edilmiş məqsəd və vəzifələri, prinsipləri, istehsal və keyfiyyət standartları, istehlakçıların inamı və ən əsası davamlı artan tələbat olan qlobal sistemdir. Bu anlayışın yaranmasının əsas səbəblərinə daxildir: 1) son onilliyin ekoloji qida böhranları və ənənəvi məhsullara artan inamsızlıq; 2) qida məhsullarının tərkibində olan geni dəyişdirilmiş komponentlərin zərəri ilə bağlı ictimai narazılıqların artması.

Orqanik məhsul istehsalına kənd təsərrüfatı torpaqları, tərəvəzçilik, meyvəçilik və üzümçülük, otlaqlar, göbələklər, cücərtilər və tinglər, bəzək və çoxillik bitkilər, dərman və ot bitkiləri daxildir. Orqanik kənd təsərrüfatı təbii həyat dövrlərinə hörmətlə yanaşılmaqla və davamlı idarəetmə sistemi yaratmaqla sağlam, dadlı, müxtəlif və yüksək keyfiyyətli qida istehsal etməyi hədəfləyir.

Orqanik kənd təsərrüfatının inkişafında müasir problemlərə metodoloji yanaşmalar

Orqanik kənd təsərrüfatının ekoloji faydaları iqlim dəyişikliyi dövründə daha aydın görünür. Bir qrup beynəlxalq ekspert iqlim dəyişikliyi şəraitində dayanıqlı əkinçilik sistemindən istifadə etməyi məqsədəuyğun hesab edir. Orqanik təsərrüfatlarda istifadə olunan dayanıqlı əkinçilik təcrübələri ətraf mühitə karbon emissiyalarını azaldır. Orqanik üsullardan istifadə etməklə karbon emissiyaları ənənəvi təsərrüfatlarla müqayisədə 48-66% azaldıla bilər. Orqanik təsərrüfatlar ənənəvi təsərrüfatlara nisbətən daha az azot gübrəsindən istifadə etdiyi üçün azotla çirklənmə səviyyəsi 65-88% az olur. Təbiətin və biomüxtəlifliyin qorunmasına daha real şəkildə orqanik kənd təsərrüfatı sistemində nail olmaq olar. Bu sistemin ekoloji faydalarını müəyyənləşdirən amillərdən biri də geni dəyişdirilmiş məhsulların istifadəsindən yayınmaqdır. Geni dəyişdirilmiş məhsulların istifadəsindən imtina ekoloji dayanıqlılığı qorumaqla bərabər, insan sağlamlığının yaxşılaşdırılmasının əsas şərtlərindən biri hesab olunur [1, s.59].

Orqanik kənd təsərrüfatının ekoloji faydalarını müzakirə edərkən, iqlim dəyişikliyi də nəzərə alınmalıdır, çünki, bu sahə təbiətin və biomüxtəlifliyin qorunmasına töhfə verir. Eyni zamanda, kənd təsərrüfatının inkişaf etdirilməsi resurslarının dəyərləndirilməsi iqtisadi baxımdan vacibdir [6, s. 90]. Orqanik kənd təsərrüfatının mühüm prinsipi heyvanların sağlamlığı və təhlükəsizliyidir, çünki o, heyvandarlıqda xəstəliklərə qarşı mübarizə aparmaq üçün profilaktik tədbirlərə əsaslanır, baytarlıq dərmanlarının istifadəsini məhdudlaşdırır, heyvandarlıq istehsalı üçün orqanik standartlar, həmçinin heyvanlar üçün kifayət qədər yer, təmiz hava və müvafiq sığınacaq tələb edir.

Hesab edirik ki, ekoloji proseslərə, biomüxtəlifliyə və yerli şəraitə xas olan, təbii dövrlərə əsaslanan orqanik kənd təsərrüfatının ənənəvi kənd təsərrüfatı ilə müqayisədə danılmaz faydalarını ümumiləşdirmək olar: 1) Uzunmüddətli sabitlik, təkmilləşdirilmiş torpaq strukturu, biomüxtəlifliyin artması, insan və heyvan sağlamlığı üçün təhlükəsizlik, həmçinin qidanın ən yaxşı dada malik olması və s. Orqanik kənd təsərrüfatı ətraf mühiti yaxşılaşdırmaq və bütün insanlar üçün yüksək həyat keyfiyyətinə malik ədalətli münasibətləri inkişaf etdirmək üçün innovasiya və elmi birləşdirir [12, s.371]. 2) Sosial faydalar. Orqanik kənd təsərrüfatı kənd əhalisinə əhəmiyyətli sosial təsir göstərə bilər. Yeni fəaliyyətə başlayanlar üçün orqanik istehsal kənd əhalisi arasında iş imkanlarının artmasına səbəb ola bilər. Orqanik təsərrüfatların əsas faydalarından biri yeni iş yerlərinin yaradılmasıdır. Bu, işsizliyin yüksək olduğu regionlar üçün yaxşı imkan sayıla bilər. Böyük təsərrüfatlarda orqanik məhsulların yetişdirilməsi istehsal xərclərini azaldacaq və ixrac bazarlarına çıxış imkanlarını artıracaqdır. Orqanik kənd təsərrüfatı sintetik gübrələrin və pestisidlərin aradan

qaldırılmasını kompensasiya etmək üçün tez-tez əl əməyindən daha çox istifadə edir və buna görə kənd əhalisi üçün daha çox iş imkanları yaradır. Ümumiyyətlə, orqanik fermanın idarə edilməsi ənənəvi təsərrüfatlardan 10-20% daha çox əmək tələb edir. Orqanik kənd təsərrüfatının digər sosial faydası ondan ibarətdir ki, orqanik qida istehsalı yerli icmaları gücləndirir və kəndlərin inkişafına töhfə verir. Rəqabətə davamlı olmaq üçün kənd təsərrüfatı istehsalçıları yerli şəraitə uyğunlaşmalı, ətraf mühitə hörmət etməklə məhsuldarlığı artırmaq üçün əməyi, torpağı və resursları idarə etməlidirlər [4, s. 143]. Bir çox orqanik təsərrüfatlar əmək və sosial müdafiə ilə bağlı ədalətli ticarət prinsiplərindən də istifadə edirlər. Orqanik kənd təsərrüfatı sahəsində işçilərin hüquqlarını həyata keçirməklə, orqanik istehsalçılar minimum sosial və əmək standartlarının tətbiqinə razılıq verirlər. Bu məqsədlə kənd istehsalçıları işçilərin məqbul əməkhaqqı alması, həyat və sağlamlıq üçün təhlükəsiz şəraitdə işləməsi, sosial xidmətlərdən istifadə imkanlarını təmin etmək üçün tədbirlər görür. 3) İqtisadi faydalar. Orqanik məhsullara tələbatın artması istehlakçıların ənənəvi istehsal olunan qidaların təhlükəsizliyi ilə bağlı artan narahatlığı ilə əlaqədardır. Kənd təsərrüfatı istehsalçıları anlayırlar ki, istehlakçılar orqanik şəkildə yetişdirilən məhsul üçün daha yüksək qiymətlər ödəməyə hazırdırlar. Bu, xüsusilə inkişaf etməkdə olan ölkələrin istehsalçıları üçün doğrudur, çünki bu, onlara yüksək gəlirli və yeni bazarlara çıxmaq imkanı yarada bilər. Lakin orqanik istehsalda davamlı artım, iqtisadi yüksəlişlərdən, qiymətlərdən və ərzaq təhlükəsizliyinə maraqdan asılıdır. Buna görə, orqanik məhsulların kənd təsərrüfatı istehsalçıları bazarlara çıxmaq üçün diqqətlə effektiv planlar hazırlamalı və məhsullarını satmaq niyyətində olduqları ölkələrdə tanınan sertifikatlar almalıdırlar [13, s.47-48]. Təsərrüfat planlaması düzgün aparılarsa, orqanik məhsulların istehsalı üsulları istənilən ölçülü sahələrdə qəbul edilə və fayda gətirə bilər.

Fikrimizcə, orqanik kənd təsərrüfatının faydalarından danışarkən, onun bəzi mənfi cəhətləri də nəzərə alınmalıdır. Kənd təsərrüfatının davamlı inkişafı tələblərinə əsaslanaraq, ekoloji və iqtisadi səbəblərə görə, orqanik istehsala tam keçid kənd təsərrüfatının inkişafı üçün məqbul istiqamət ola bilməz. Hal-hazırda, orqanik məhsulların yüksək keyfiyyətli və sağlam olduğuna dair subyektiv fikir var, çünki daha yüksək qiymətə malikdir və istehsal üsulu müxtəlif aqrokimyəvi maddələrin istifadəsini istisna edir. Bütün bunlarla yanaşı, alimlər tərəfindən aparılan çoxsaylı təhlillər göstərir ki, insanlar üçün ən böyük risk qidada pestisidlərin və nitratların qalıq miqdarı deyil, əmələ gələn mikotoksinlərin tərkibidir. Xəstəliklərdən qorunma vasitələrindən istifadə edilmədən heyvanların və insanların həyatı üçün təhlükəli olan mikotoksinlərin əmələ gəlməsi üçün hər cür şərait var. Orqanik kənd təsərrüfatının aşağı məhsuldarlığı və iqtisadi fəaliyyətin ənənəvi (intensiv) formalarına münasibətdə resurs istehlakının yüksək səviyyədə olması səbəbindən bu sahənin qloballaşması milli və qlobal səviyyədə ərzaq təhlükəsizliyinə təhlükə yarada bilər. Kənd təsərrüfatının orqanik əkinçiliyə kütləvi şəkildə keçirilməsi həmin sahə məhsullarının keyfiyyətinin yaxşılaşmasına gətirib çıxarmadan aclıq problemini daha da ağırlaşdıracaq. Orqanik kənd təsərrüfatının inkişafında ən problemli sahələr, ehtimal ki, bitkiçilik, heyvandarlıq və torpaq becərmə texnologiyaları sahələridir ki, bu da insan orqanizmi üçün zərərli olan kimyəvi maddələrdən istifadə ehtiyacını minimuma endirir və məhsulun keyfiyyətini yaxşılaşdırmağa kömək edir. Bu baxımdan, müvafiq elmi işlərlə yanaşı, kənd təsərrüfatı məhsulları istehsalçılarına məlumatların verilməsi və onların yenidən hazırlanması (ixtisaslarının artırılması) ilə müvafiq bitkilərin, heyvandarlıq cinslərinin, bioloji mühafizə vasitələrinin və maşın texnologiyalarının daim yenilənən təsnifatının tərtib edilməsi vacibdir [14, s.439].

Beləliklə, orqanik kənd təsərrüfatı hazırkı mərhələdə iqtisadi fəaliyyətin müvafiq sahəsidir. Aparılan araşdırmalara əsasən demək olar ki, tədqiq etdiyimiz sahənin faydaları ekoloji, sosial və iqtisadi olmalıdır. Ekolojilik kontekstində orqanik kənd təsərrüfatının əsas faydası ətraf mühitin təmizliyi, məhsulların keyfiyyəti və təhlükəsizliyi, bioloji müxtəlifliyin qorunmasıdır. İqtisadi səmərəlilik nöqteyi-nəzərindən əsas faydalarına orqanik məhsullara artan tələbat, aşağı investisiyalardır. Sosial faydalarına gəlincə, bu qrupa kənd əhalisi arasında məşğulluq imkanlarının artırılması daxildir, çünki əl əməyindən çox vaxt orqanik əkinçilikdə daha geniş istifadə olunur və orqanik istehsal kənd istehsalçıları üçün özünü təmin etmək baxımından əlverişli vasitə ola bilər

və mühüm sosial üstünlük yerli icmaların gücləndirilməsi və orqanik istehsalla bağlı kəndlərin inkişafı olacaqdır. Orqanik kənd təsərrüfatını inkişaf etdirərkən yuxarıdakı amillər əsas götürülməlidir. Lakin bu sektorun inkişafına bir sıra amillər mane olur: orqanik sektorun institusional strukturu, yəni məlumatların toplanması üçün milli konsepsiyanın və orqanik kənd təsərrüfatı sahəsində hüquqi tənzimləmə sisteminin olmaması; istehlakçıların alıcılıq qabiliyyətinin aşağı olması; orqanik məhsulların istehsalçılarının sayının az olması; orqanik kənd təsərrüfatına dövlət dəstəyinin və ixtisaslaşdırılmış təhsil proqramlarının olmaması; orqanik məhsullar üçün ölkə standartlarının olmaması və s. Artıq bir müddətdir ki, kənd təsərrüfatında orqanik heyvandarlığın prioritet olmasına baxmayaraq, onun inkişafına da mane olan obyektiv amillər var, o cümlədən: inkişaf etməmiş əkinçilik; heyvanların qapalı şəraitdə saxlanmasını tələb edən iqlim şəraiti; orqanik məhsulların yüksək qiyməti ilə əhalinin aşağı alıcılıq qabiliyyəti; istehsal texnologiyasına, hazır məhsulların keyfiyyətinə və onların sertifikatlaşdırılmasına yüksək tələblər; heyvan mənşəli orqanik məhsulların istehsalı və bazarının tənzimlənməsi üçün normativ-hüquqi bazanın mükəmməl olmaması.

Qeyd olunan mənfi amillərin aradan qaldırılması üçün ölkənin iqtisadi, ərzaq və ekoloji təhlükəsizliyinə nail olmaq, əhalinin yaşayış səviyyəsini yaxşılaşdırmaq, əlverişli ekoloji mühiti qorumaq, kənd yerlərinin iqtisadi və sosial problemlərini həll etmək zəruridir ki, bu da dövlətdən, biznes strukturlarından və əhalidən asılıdır. Bir sıra tədqiqatçılar orqanik kənd təsərrüfatının yavaş artımını etiraf edirlər ki, bunun da səbəblərinə daxildir: fermerlərin orqanik kənd təsərrüfatı üzrə təşəbbüslərinin bölünməsi; orqanik məhsulların istehsalı imkanları haqqında kifayət qədər bilik və məlumatın olmaması; belə məhsulların satışında supermarketlərin zəif iştirakı; maddi-texniki və siyasi dəstəyin olmaması; ənənəvi təsərrüfatların və tədqiqat təşkilatlarının dəstəyinin olmaması; tədqiqatçılar və tədqiqat nəticələrinin son istifadəçiləri arasında kifayət qədər qurulmamış dialoq; istehlakçıların orqanik məhsulların alınması imkanları haqqında kifayət qədər məlumatlı olmaması.

Orqanik kənd təsərrüfatının inkişafının təmin olunmasının müasir aspektləri və istiqamətləri

Orqanik kənd təsərrüfatı məhsulları istehsal edilərkən istehsalçılar üçün həm bazar stimulları (məhsulun qiymətinin artması), həm də dövlət dəstəyi vacibdir. İstənilən ölkənin kənd təsərrüfatı istehsalçılarının orqanik əkinçilik təcrübəsinə keçidini stimullaşdırmaq üçün dövlət dəstəyi tədbirləri sistemi lazımdır. İnkişaf etmiş xarici ölkələrdə orqanik kənd təsərrüfatının uğurlu inkişafına mühüm təsir göstərmiş əsas amillərə aid edilə bilər: orqanik ərzaq istehsalçılarına dövlət və üçüncü tərəf investorlar tərəfindən maliyyə dəstəyi, o cümlədən transmilli kapitalın cəlb edilməsi; inkişaf etmiş məhsul paylama sisteminin mövcudluğu - topdan və pərakəndə ticarətin təşkil olunmuş kanalları və formaları (topdan ərzaq bazarları, əmtəə birjaları, hərraclar, yarmarkalar, ticarət mərkəzləri və s.), ixtisaslaşdırılmış saxlama, daşınma, qablaşdırma obyektləri (logistika və paylama mərkəzləri), hərtərəfli normativ-hüquqi bazanın, habelə məhsullar, istehsal, emal və infrastruktur xidmətləri üçün beynəlxalq və milli standartların və sertifikatlaşdırma sistemlərinin istifadəsi; ixtisaslaşdırılmış akkreditasiya olunmuş xidmətlər vasitəsilə normativ sənədlərin dövlət tərəfindən icrasına ciddi nəzarət; orqanik kənd təsərrüfatı məhsullarının istehsalı və marketinqi sahəsində kadr hazırlığının və elmi tədqiqatların təşkili və s. [8, s.40].

Qeyd edək ki, əhalinin əsas istehlakçılardan biri kimi istəkləri artdıqca, sağlamlıq və ətraf mühit şüuruna paralel olaraq inkişaf etdikcə orqanik məhsullara olan tələbat da artır. Dünyadakı istehlakçılar sağlamlıq səbəbləri ilə getdikcə daha çox orqanik məhsullar alırlar. Orqanik məhsulların əsas istehlakçısı uşaqlı ailələr, hamilə qadınlar və sağlamlıq problemləri olan böyüklərdir. Şəhər əhalisinə gəlincə, təhsil və gəlir səviyyəsi artdıqca, istehlakçıların da orqanik məhsullara marağı artır. Bunu nəzərə alaraq yaxın gələcəkdə qida məhsullarına, xüsusilə də orqanik qidalara tələbatın artacağı gözlənilir. Son qlobal pandemiya bir daha sübut etdi ki, sağlam, təbii və orqanik qida məhsulları istehsalının inkişafı təkcə iqtisadi deyil, habelə siyasi zərurətdir. Hazırda Azərbaycanda orqanik məhsulları əsasən əcnəbilər, otel şəbəkələri, eləcə də yüksək gəlirli və təhsilli ailələr istehlak edir. Orqanik qidalar ənənəvi qidalarla müqayisədə kifayət qədər bahalıdır. Orqanik

məhsullar bazarını şaxələndirmək və bu məhsulları aztəminatlı istehlakçılar üçün əlçatan etmək üçün əlavə rüsumları aradan qaldırmaq, qiymətləri mümkün qədər aşağı salmaq lazımdır [7].

İstehlakçıların orqanik qidalar, onların faydaları və digər sağlam qidalardan nə ilə fərqləndiyi barədə məlumatlılığının artırılması, onlara tələbatı artırmaq və istehlakçı seçiminə təsir etmək üçün effektiv tədbir ola bilər. İctimai maarifləndirmənin yollarından biri orqanik kənd təsərrüfatı haqqında qanun qəbul edilən kimi qanunvericilik səviyyəsində hazırlanmalı və təsdiq edilməli olan milli orqanik loqo haqqında məlumatlılığın artırılmasına yönəlmiş istehlakçıların maarifləndirilməsi proqramlarının olmasıdır. Orqanik sektorun inkişafı aqrar-ərzaq sektorunda işçi qüvvəsinin ixtisasının artırılmasını və yenidən hazırlanmasını tələb edir. Eyni zamanada, aqrar sahədə struktur və səmərəlilik problemlərinin ciddi şəkildə nəzərə alınması vacibdir [2]. Dövlət və regional səviyyələrdə qabaqcıl təcrübələrin mübadiləsini təşviq edən təlim proqramları təhsil müəssisələri tərəfindən hazırlana bilər. Bundan əlavə, orqanik kənd təsərrüfatı üzrə kurslar ümumtəhsil proqramlarına uyğun şəkildə inteqrasiya olunmalı və müvafiq tədqiqat mövzularının işlənməsi hesabına orqanik sektora (müvafiq məhsulların istehsalı, emalı, pərakəndə ticarəti) yönəlmiş innovativ həllər əldə edilməlidir [9, s.248].

Orqanik istehsal üçün eyni dərəcədə vacib olan məlumatların mövcudluğu, xüsusən orqanik qida tədarükü zənciri boyunca qiymətlər, ticarət və xüsusi paylama kanalları və istehlakçıların seçimləridir. Bu cür məlumatların müntəzəm olaraq toplanması, təhlili və yayılması üçün əlavə səylər orqanik sektorda şəffaflığı və etimadı artıracaq. İstehsalla məşğul olan müəssisələr orqanik məhsullar haqqında dəqiq və vaxtında məlumat əldə etməkdə getdikcə daha çox maraqlanırlar, çünki bu cür şəffaflıq qida zəncirindəki operatorlar arasında etimadın qurulmasına kömək edir, istehsalın istehlak tendensiyalarına uyğun olmasını təmin edir və son nəticədə prosesin bütün iştirakçıları tərəfindən daha effektiv istehsal və investisiya qərarları qəbul etmək olur. Orqanik məhsulların istehsalına yönəlmiş əkinçilik təcrübəsi sübut edir ki, istehlakçıların üstünlükləri orqanik məhsul bazarı uğrunda fundamental amildir. Orqanik kənd təsərrüfatının inkişafı istər bir müəssisədə, istərsə də bütün regionda eyni vaxtda özbaşına baş verə bilməz. Bu baxımdan sistemlilik, əməkdaşlıq, inteqrasiya, innovativ inkişaf nəzəriyyəsinə əsaslanan klaster yanaşması təklif olunur. Klaster texnologiyalarının ideyası klasterin formalaşmasında iştirakçıların rəqabətqabiliyyətlilik nailiyyətlərini birləşdirməkdir. Coğrafi cəhətdən məhdud ixtisaslaşmış ərazidə əməkdaşlıq və inteqrasiya klasterin əsas xüsusiyyətləridir. Klasterin mühüm xüsusiyyəti onun innovasiya yönümlü olması, biointensiv texnologiyaların inkişaf etdirilməsi, orqanik məhsullar bazarının təşkili, o cümlədən dünya bazarlarında tələbat olan təbii orqanik məhsulların daha yüksək satış qiymətləri ilə ixrac edilməsidir ki, bu da kənd yerlərinin inkişafı baxımından bir çox problemlərin həllinə kömək edəcəkdir [10, s.99].

Nəticə

Beləliklə, davamlı inkişaf prinsiplərinə cavab verən orqanik kənd təsərrüfatı sektorunun inkişaf etdirilməsi problemlərinin həlli üçün bunları təklif edə bilərik:

– Orqanik məhsullar sektorunun hüquqi tənzimlənməsi. Hazırda bir sıra ölkələrdə orqanik kənd təsərrüfatı kortəbii şəkildə inkişaf edir: məhsulların istehsalı və etiketlənməsi üçün konseptual aparat, tələblər yoxdur. Öz xüsusiyyətlərinə malik olan orqanik kənd təsərrüfatı ayrıca normativ və hüquqi sənədlərin hazırlanmasını tələb edir. Orqanik məhsullar üçün milli standart və orqanik məhsullar üçün loqo da lazımdır. Orqanik məhsullar istehsalı haqqında qanun formalaşdırılmalı və inkişaf etdirilməlidir, belə məhsulların nəzarəti və sertifikatlaşdırılması sistemi, kənd təsərrüfatı istehsalının ekoloji üsullarına dövlət dəstəyi tədbirləri və s. reallaşdırılmalıdır;

– Orqanik məhsullara tələbatın yaradılması. Milli bazarda orqanik məhsullara tələbat olması üçün əhalinin onun dəyərini və faydalılığını tanıması lazımdır. Bu məsələdə əsas rol informasiya dəstəyinə aiddir ki, bu da orqanik məhsullara inamın artmasına və istehlakçıların həmin məhsulların dəyərini tanımasına səbəb ola bilər. Dövlət tərəfindən orqanik məhsullar bazarının bütün iştirakçılarına ən müasir məlumat, analitika və orqanik texnologiyalar üzrə təlim proqramlarına

çıxış əldə etmək üçün təhsil və informasiya resurslarından fəal istifadə etmək lazımdır;

– Torpağın münbitliyinin qorunmasının stimullaşdırılması. Bir sıra ölkələrdə, o cümlədən Azərbaycanda və onların regionlarında kəskin problem deqradasiyaya başlayan istifadəsiz kənd təsərrüfatı torpaqlarının olmasıdır. Ekoloji tarazlığın qorunması və möhkəmləndirilməsi üçün kənd təsərrüfatı torpaqlarının bərpası və münbitliyinin artırılması zəruridir. Torpağın keyfiyyətinin yaxşılaşdırılması kənd təsərrüfatı məhsuldarlığının artırılması amilidir;

– Ənənəvi torpaq istifadəsində subsidiyaların azaldılması yolu ilə orqanik kənd təsərrüfatının subsidiyalaşdırılması. Orqanik məhsullar üçün subsidiyalar xeyli yüksək olmalıdır. Bundan əlavə, orqanik istehsalın inkişafına dəstək ətraf mühitin mühafizəsi, xüsusən də torpağın münbitliyinin bərpası və artırılması tədbirləri ilə əlaqələndirilə bilər və s.

ƏDƏBİYYAT

1. Abbasov, A.F. Orqanik kənd təsərrüfatı məhsullarının istehsalı və satiş bazarları. Kənd təsərrüfatının iqtisadiyyatı, – 2020. № 2 (32), – s.53-56.
2. Ataşov, B.X. Aqrar sahədə struktur və səmərəlilik problemləri / B.X.Ataşov. – Bakı: Kooperasiya, – 2017. – 536 s.
3. Əliyev, Ş.T. Azərbaycanda kənd təsərrüfatinin və aqrar sənaye kompleksinin inkişafinin strateji aspektləri. // “İpək Yolu” jurnalı, 2018, №2. – s.23-32. https://au.edu.az/upload-files/menu/ipekyolu/2018_2/3Aliyev_Sh.pdf.
4. Əliyev, Ş.T. İlham Əliyevin kənd təsərrüfatı sahəsindəki islahatları real nəticələr verir. /İlham Əliyev-10 il hakimiyyətdə. Elmi-praktiki konfransın materialları. Bakı, “Şərq-Qərb” Nəşrıyyat Evi, 2013. – s.141-156.
5. Quliyev, E.A. Qlobal ərzaq təhlükəsizliyi: reallıqlar, çağırışılar və perspektivlər. / E.A.Quliyev – Bakı: Kooperasiya, – 2018. – 479 s.
6. Nuriyev, Ə.X. Azərbaycanın kənd təsərrüfatı yeni inkişaf mərhələsində. MEA-nın Xəbərləri. İqtisadiyyat seriyası – 2021 (mart-aprel), – s.87-92.
7. Ölkənin aqrar sahəsində yeni bir istehsalatın yaradılması və inkişafı. [Elektron resurs] / URL: https://afn.az/iqtisadiyyat/90581-olkenin-aqrar-sahesinde-yeni-bir-istehsalatin-yaradilmasi-ve-inkishafi.html.
8. Аварски, Н., Астраханцева, Е. Методологические аспекты развития органического сельского хозяйства в России. АПК: Экономика, управление, 08, 2017, – с.38-56.
9. Головина, С.Г. Органическое сельское хозяйство: европейский опыт / С.Г. Головина // Развитие современной науки и технологий в условиях трансформационных процессов: Сборник материалов VIII Международной научно-практической конференции, – Москва, – 13 января 2023, – с. 518-523.
10. Кундиус, В.А. Научные основы развития органического сельского хозяйства, кластерный подход / В.А. Кундиус, О.Ю. Воронкова // Международный журнал гуманитарных и естественных наук. – 2019. № 11-1(38), – с. 97-100.
11. Лукашук, Н.А. Зарубежный опыт развития органического сельскохозяйственного производства / Н. А. Лукашук, О. И. Родькин // Труды БГТУ. Серия 5: Экономика и управление. – 2017. № 1(196), – с. 185-189.
12. Полушкина, Т.М. Государственное регулирование развития органического сельского хозяйства: зарубежный опыт и отечественная практика / Т. М. Полушкина // Региональная экономика и управление: электронный научный журнал. – 2016. № 4(48), – с. 366-378.
13. Стеших, О. Государственное регулирование становления и развития органического сельского хозяйства (зарубежный опыт) / О. Стеших // Аграрная экономика. – 2017. № 7(266), – с. 47-57.
14. Хоменко, В.В. Состояние и перспективы развития органического сельского хозяйства / В.В. Хоменко // Научные труды Вольного экономического общества России. – 2021. – Т. 230, № 4, – с. 435-440.

Эльнур Гара оглу Аллахвердев
Доцент Азербайджанского Университета Кооперации,
доктор философии по экономике,
E-mail:allahverdiyev.elnur33@mail.ru

Методологические особенности проблем обеспечения развития органического сельского хозяйства в современный период

Резюме

Цель исследования - является выявление и обобщение методологических особенностей проблем обеспечения развития органического сельского хозяйства в современную эпоху. Для этого обоснованы и систематизированы проблемы развития сельского хозяйства. Приведены концептуальные подходы к формированию и развитию органического сельского хозяйства. Сделано обобщение и даны предложения по методическим подходам к развитию органического сельского хозяйства в современных условиях.

Методология исследования включала методы научной абстракции, анализа, синтеза, сравнения и обобщения. Кроме того, были сделаны ссылки на научно-методические исследования, проводимые в целях обеспечения развития органического сельского хозяйства.

С точки зрения прикладной значимости исследования можно отметить, что представленные в статье научные и практические инновации могут быть использованы при разработке механизмов эффективного использования особенностей развития сельского хозяйства в современных условиях.

Подводя итоги исследования, следует отметить, что высказанные в исследовании предложения могут быть использованы для разработки соответствующих механизмов действий по ускорению развития органического сельского хозяйства.

С точки зрения оригинальности и научной новизны исследования отметим, что сформулированы и обоснованы новый взгляд и концептуальные положения относительно методологических подходов к развитию органического сельского хозяйства в условиях новых вызовов. В частности, обеспечено выявление более совершенных методологических стилей органического сельского хозяйства в условиях глобальных трансформаций. Разработаны рекомендации и внесены предложения по этому поводу.

Ключевые слова: сельское хозяйство, органическое сельское хозяйство, проблемы развития органического сельского хозяйства, методология, методологические подходы, методологические стили, методологические особенности.

Elnur Gara Allahverdiev
Assistant professor of Azerbaijan Cooperation University,
Doctor of Philosophy in Economics,
E-mail: allahverdiyev.elnur33@mail.ru

Methodologıcal features of the problems of ensurıng the development of organıc agrıculture ın the modern perıod

Summary

The purpose of the research is to identify and generalize the methodological features of the problems of ensuring the development of organic agriculture in the modern era. For this, the problems of agricultural development have been explained and systematized. Conceptual approaches to the formation and development of organic agriculture have been given. A generalization has been made and suggestions have been made on the methodological approaches to the development of organic agriculture in modern conditions.

The research methodology used scientific abstraction, analysis, synthesis, comparison and generalization methods. In addition, references were made to scientific and methodological research works conducted to ensure the development of organic agriculture.

In terms of the applied significance of the research, we can note that the scientific and practical innovations presented in the article can be used in the development of mechanisms for the effective use of the development characteristics of agriculture in the current conditions.

In terms of the results of the study, it should be noted that the proposals made in the study can be used to develop appropriate action mechanisms to accelerate the development of organic agriculture.

In terms of the originality and scientific novelty of the research, we note that a new view and conceptual provisions on methodological approaches to the development of organic agriculture in the context of new challenges have been formulated and substantiated. In particular, the identification of more advanced methodological styles of organic agriculture in the context of global transformations has been ensured. Recommendations have been developed and proposals have been made in this regard.

Keywords: agriculture, organic agriculture, development problems of organic agriculture, methodology, methodological approaches, methodological styles, methodological features.